MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

# QEYRİ-MADDİ MƏDƏNİ İRS

## TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz Xəlilli

BAKI – 2026

Kitabın məzmunu “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin cavabdehliyindədir, bu baxımdan kitabın məzmunu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin mövqeyini əks etdirmir.

Kitab Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Qeyri Hökumət Təşkilatları üçün elan etdiyi 2025-ci il Qrant müsabiqəsi çərçivəsində nəşr olunmuşdur.

Xəlilli, Fariz. (Hazırlayan). (2026). Qeyri-maddi mədəni irs: Tədris vəsaiti.
Bakı: *"AFPoliqrAF"*, 2026.– 300 səh.

10 mart – 24 aprel 2026-cı il tarixlərində “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin Mədəni İrs Beynəlxalq Ustad Məktəbi qeyri-maddi mədəni irs ustad dərslərinə başlamışdır. Dərslər YUNESKO-nun Qeyri-maddi mədəni irs ilkin siyahısında olan Azərbaycanın 24 qeyri-maddi mədəni irsi mövzularında olub, Azərbaycan irs mütəxəssisləri tərəfindən aparılmışdır. Mühazirələr əsasında tədris vəsaiti nəşrə hazırlanmışdır.

Elmi redaktor: Prof.Dr. Şikar Qasımov
Rəyçi: Prof.Dr. Kübra Əliyeva

Koordinator: Məleykə Hüseynova
Fotolar: Fariz Xəlilli, Məleykə Hüseynova, Nərmin İmanova, Süleyman Süleymanov

ISBN: 978-9952-598-51-3

© “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, 2026

# MÜNDƏRİCAT

ÖN SÖZ ..... 6

QEYRİ-MADDİ MƏDƏNİ İRS ANLAYIŞI – MƏDƏNİYYƏTİMİZİN DÜNYADA DANIŞAN DİLİ
Şikar Qasımov ..... 7

AZƏRBAYCANIN İRS NÜMUNƏLƏRİ YUNESKO-NUN
QEYRİ-MADDİ MƏDƏNİ İRS SİYAHISINDA
Məleykə Hüseynova ..... 15

AZƏRBAYCAN MUSİQİ MƏDƏNİYYƏTİ VƏ ONUN İNKİŞAF MƏRHƏLƏLƏRİ
Şikar Qasımov ..... 20

MUĞAMIN TARİXİ VƏ MİLLİ KİMLİKDƏ ROLU (ARXEOLOJİ MATERİALLAR ƏSASINDA)
Kübra Əliyeva ..... 30

MUSİQİNİN FƏLSƏFİ DƏYƏRİ
Elmira Abasova ..... 39

TAR ALƏTİNİN YARANMA TARİXİ, FORMALAŞMASI VƏ İFAÇILIQ SƏNƏTİ
Səxavət Məmmədov ..... 50

KAMANÇA ALƏTİNİN YARANMA TARİXİ, İNKİŞAF MƏRHƏLƏLƏRİ VƏ
İFAÇILIQ XÜSUSİYYƏTLƏRİ
Toğrul Əsədullayev ..... 54

"DƏDƏ QORQUD" DASTANI İSLAMİ QAYNAQ KİMİ
Aybəniz Rəhimova ..... 58

POSTMODERN AZƏRBAYCAN ROMANINDA "DƏDƏ QORQUD" DASTANI VƏ
TƏHRİF EDİLMİŞ TARİX
Şəmil Sadıqov ..... 63

AŞIQ, XANƏNDƏLİK VƏ MUĞAM SƏNƏTİNİN AZƏRBAYCAN XALQ YARADICILIĞININ
TƏBLİĞİNDƏ ROLU
Şikar Qasımov ..... 69

OZAN-AŞIQ SƏNƏTİNİN TARİXİ-MƏDƏNİ SƏCİYYƏSİ
Hafiz Kərimov ..... 80

AZƏRBAYCANIN AŞIQ SƏNƏTİ VƏ QADIN AŞIQLARI ƏZİZƏ CƏFƏRZADƏ
YARADICILIĞINDA
Fərqanə Zülfiqarova ..... 87

ŞİFAHİ YUMOR VƏ SÖZ MƏDƏNİYYƏTİ: LƏTİFƏLƏRİN MAARİFLƏNDİRİCİ VƏ
SATİRİK FUNKSİYASI
Lətafət Əliyeva ..... 91

# AZƏRBAYCANIN İRS NÜMUNƏLƏRİ YUNESKO-NUN QEYRİ-MADDİ MƏDƏNİ İRS SİYAHISINDA

**Məleykə Hüseynova**
Miras Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi
https://doi.org/10.30546/19023.2026.1001.207

Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, ölkənin maddi və qeyri-maddi mədəni irs nümunələri həm milli, həm də beynəlxalq səviyyədə qorunur. Mədəni irsin mühafizəsi beynəlxalq müstəvidə aidiyyəti beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş sənədlərə əsaslanır, milli səviyyədə isə səlahiyyətli dövlət orqanları tərəfindən milli qanunvericiliyə və Azərbaycanın qoşulduğu beynəlxalq hüquqi aktlara uyğun şəkildə təmin edilir.

Azərbaycan Respublikası Konstitusiyasının 40-cı maddəsinin 2-ci bəndində qeyd olunur ki, hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır. Bu müddəa mədəni irsin qorunmasının yalnız dövlətin deyil, eyni zamanda cəmiyyətin bütün üzvlərinin üzərinə düşən ümumi bir vəzifə olduğunu təsbit edir.

Milli səviyyədə mədəni irsin qorunması müvafiq səlahiyyətli dövlət qurumları, icra hakimiyyəti orqanları, rəsmi institutlar və bələdiyyələrlə yanaşı, hüquqi və fiziki şəxslərin də iştirakı ilə həyata keçirilir. Beynəlxalq səviyyədə isə bu proses həm ikitərəfli əməkdaşlıq mexanizmləri, həm də beynəlxalq təşkilatlar çərçivəsində qəbul edilmiş sənədlər əsasında reallaşdırılır.

Müasir dövrdə mədəni irsin, xüsusilə də qeyri-maddi mədəni irsin qorunmasında mühüm rol oynayan aparıcı beynəlxalq təşkilatlardan biri YUNESKO-dur. YUNESKO (YUNESKO - United Nations Educational, Scientific and Cultural Organization) Birləşmiş Millətlər Təşkilatının elm, təhsil və mədəniyyət sahələri üzrə ixtisaslaşmış qurumu olub, 16 noyabr 1945-ci ildə təsis edilmiş, 4 noyabr 1946-cı ildən etibarən fəaliyyətə başlamışdır. BMT-yə üzv dövlətlər eyni zamanda YUNESKO-ya da üzv ola bilirlər. Azərbaycan Respublikası bu təşkilata 3 iyun 1992-ci il tarixində üzv qəbul edilmişdir. Təşkilatın mənzil-qərargahı Fransanın paytaxtı Paris şəhərində yerləşir.

YUNESKO mədəni irsin qorunması sahəsində bilavasitə fəaliyyət göstərən əsas beynəlxalq institutlardan biri kimi çıxış edir. Onun başlıca məqsədi irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq bütün xalqlar arasında BMT Nizamnaməsində təsbit olunmuş ədalət, qanunun aliliyi, insan hüquqları və əsas azadlıqlara ümumi hörmətin təmin edilməsinə töhfə verməkdən ibarətdir. Bu məqsəd təhsil, elm və mədəniyyət sahələrində beynəlxalq əməkdaşlığın genişləndirilməsi yolu ilə sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi vasitəsilə həyata keçirilir.

Təşkilat öz fəaliyyətini qəbul etdiyi beynəlxalq hüquqi sənədlər əsasında həyata keçirir. Qeyri-maddi mədəni irsin qorunması sahəsində əsas sənəd 17 oktyabr 2003-cü il tarixli "Qeyri-maddi mədəni irsin qorunması haqqında" YUNESKO Konvensiyasıdır. Bu Konvensiya hazırda geniş beynəlxalq dəstəyə malik olub, 185 dövlət onun iştirakçısıdır. Azərbaycan Respublikası sözügedən Konvensiyaya 2 oktyabr 2006-cı ildə qoşulmuşdur.

Bundan əlavə, 2023-cü ilin noyabr ayında keçirilmiş YUNESKO Baş Konfransının 42-ci sessiyasında 17 oktyabr tarixi "Beynəlxalq Qeyri-Maddi İrs Günü" kimi elan edilmişdir. Bu günün təsis edilməsində əsas məqsəd qeyri-maddi mədəni irsə beynəlxalq diqqətin artırılması, nəsildən-nəslə ötürülən mənəvi dəyərlərin, ənənələrin, mədəni müxtəlifliyin, bilik və bacarıqların qorunmasının təşviqi, habelə bu irsin gələcək nəsillərə ötürülməsinin əhəmiyyətinin vurğulanmasıdır.

“Qeyri-maddi mədəni irsin qorunması haqqında” Konvensiya qeyri-maddi mədəni irsin mühafizəsi, aidiyyəti icmaların, qrupların və ayrı-ayrı fərdlərin bu irsə hörmət hüququnun təmin edilməsi, yerli, milli və beynəlxalq səviyyələrdə onun əhəmiyyəti barədə məlumatlılığın artırılması və qarşılıqlı tanınmanın təşviqi, habelə beynəlxalq əməkdaşlıq və yardım mexanizmlərinin inkişaf etdirilməsi məqsədlərini özündə ehtiva edir.

Konvensiyaya əsasən, “qeyri-maddi mədəni irs” anlayışı icmalar, qruplar və bəzi hallarda fərdlər tərəfindən öz mədəni irsinin ayrılmaz tərkib hissəsi kimi qəbul edilən təcrübələri, təqdimat formalarını, ifadələri, bilik və bacarıqları, eləcə də bunlarla bağlı alətləri, əşyaları, maddi mədəniyyət nümunələrini və mədəni məkanları əhatə edir. Bu yanaşma qeyri-maddi irsin yalnız abstrakt mənəvi dəyərlərdən ibarət olmadığını, eyni zamanda onun maddi komponentlərlə qarşılıqlı əlaqədə formalaşdığını göstərir.

Konvensiyanın həyata keçirilməsi məqsədilə təsis edilmiş Hökumətlərarası Komitə qeyri-maddi mədəni irsin qorunması üzrə əsas icraedici mexanizm kimi çıxış edir. Qoruma tədbirlərinin effektivliyini təmin etmək üçün hər bir iştirakçı dövlət öz milli xüsusiyyətlərini və mövcud vəziyyətini nəzərə alaraq, ərazisində mövcud olan qeyri-maddi mədəni irs elementlərinin bir və ya bir neçə siyahısını tərtib edir və həmin siyahıları müntəzəm şəkildə yeniləyir. Bununla yanaşı, dövlətlər mütəmadi olaraq Komitəyə hesabatlar təqdim edir və bu sahədə görülən işlər barədə ətraflı məlumat verir.

Beynəlxalq səviyyədə isə qeyri-maddi mədəni irsin qorunmasını təmin etmək məqsədilə Konvensiya çərçivəsində bir sıra mühüm siyahı və mexanizmlər yaradılmışdır. Bunlara Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısı, Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısı və Qabaqcıl qoruma təcrübələrinin reyestri daxildir. Bu alətlər qeyri-maddi irsin identifikasiyası, sənədləşdirilməsi, qorunması və beynəlxalq səviyyədə tanıdılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısı qeyri-maddi mədəni irsin geniş tanıdılmasını təmin etmək, onun əhəmiyyətinin daha dərindən dərk olunmasına şərait yaratmaq, mədəni rəngarəngliyə hörmət əsasında dialoqu təşviq etmək, xalqların mədəni müxtəlifliyini nümayiş etdirmək, bu sahəyə beynəlxalq diqqəti artırmaq və maarifləndirməni genişləndirmək məqsədi daşıyır.

Siyahı YUNESKO-nun müvafiq Hökumətlərarası Komitəsi tərəfindən İştirakçı Dövlətlərin təqdim etdiyi namizədliklər əsasında formalaşdırılır. Bu prosesin tənzimlənməsi məqsədilə Komitə siyahının tərtibi, yenilənməsi və dərc olunması ilə bağlı meyarlar hazırlayaraq Baş Assambleyanın təsdiqinə təqdim edir.

İrs elementinin siyahıya daxil edilməsi üçün İştirakçı Dövlətlər tərəfindən hazırlanmış Namizədlik Sənədi (Nomination File) hər il mart ayının 31-dək Katibliyə təqdim olunmalıdır. Təqdim edilmiş sənəd tam və tələblərə uyğun hesab edildiyi halda, Katiblik tərəfindən Qiymətləndirmə Orqanına yönləndirilir. Namizədlik sənədində təqdim olunan qeyri-maddi mədəni irs nümunəsi Komitə tərəfindən müəyyən edilmiş bütün meyarlara cavab verməlidir.

Natamam və ya texniki cəhətdən qeyri-kafi sənədlər müəyyən edilmiş müddət çərçivəsində tamamlanması üçün müvafiq dövlətə geri qaytarılır. Qiymətləndirmə Orqanı tərəfindən aparılan ekspertiza nəticəsində hazırlanmış yekun qiymətləndirmə rəyi və hesabat Komitəyə təqdim olunur. Komitə isə təqdim olunmuş sənədlər əsasında namizədlikləri, təklifləri və müraciətləri nəzərdən keçirərək müvafiq irs nümunəsinin Reprezentativ Siyahıya daxil edilməsi barədə yekun qərarı qəbul edir.

Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs Siyahısı iştirakçı dövlətlərin müraciəti əsasında yox olmaq təhlükəsi ilə üzləşmiş irs nümunələrinin müəyyənləşdirilməsi və onların qorunması məqsədilə formalaşdırılır. Bu siyahının əsas məqsədi təhlükə altında olan qeyri-maddi mədəni irs elementlərinin yaşadılması üçün zəruri qoruma tədbirlərinin həyata keçirilməsi və bu istiqamətdə təcili beynəlxalq dəstəyin təmin edilməsidir.

Adətən bu siyahıya daşıyıcılarının və ya ifaçılarının sayı azalan, nəsillərarası ötürülməsi zəifləyən, sosial və mədəni dəyişikliklər nəticəsində unudulmaq riski ilə üzləşən irs nümunələri daxil edilir. Sözügedən siyahıya daxil edilmə prosesi üçün YUNESKO-nun Hökumətlərarası Komitəsi tərəfindən müvafiq meyarlar müəyyən edilmişdir. İştirakçı dövlətlər təhlükə altında olan irs nümunələri üzrə hazırladıqları Namizədlik Sənədi əsasında Katibliyə müraciət edir. Katiblik müraciəti qeydə aldıqdan sonra sənədin tamlıq dərəcəsindən asılı olmayaraq həmin il ərzində onu Qiymətləndirmə Orqanına təqdim edir.

Namizədliyin qəbul edilməsi üçün təqdim olunmuş irs nümunəsinin Komitə tərəfindən müəyyən edilmiş bütün meyarlara uyğunluğu əsas şərt kimi çıxış edir. Qiymətləndirmə Orqanının hazırladığı hesabat və rəylər Komitəyə təqdim edildikdən sonra, Komitə müvafiq irs nümunəsinin Siyahıya daxil edilməsi barədə yekun qərarı qəbul edir.

Qabaqcıl qoruma təcrübələrinin Reyestri isə Konvensiyanın məqsəd və prinsiplərini ən dolğun şəkildə əks etdirən proqramları, layihələri və fəaliyyətləri əhatə edir. Bu reyestrə, əsasən, qeyri-maddi mədəni irsin qorunmasına yönəlmiş və xüsusilə inkişaf etməkdə olan ölkələrin ehtiyaclarını nəzərə alan milli, subregional və regional səviyyəli təşəbbüslər daxil edilir.

Belə proqram və layihələr iştirakçı dövlətlər tərəfindən beynəlxalq yardım məqsədilə təqdim olunan təkliflər əsasında qiymətləndirilir. Onların seçimi YUNESKO-nun Hökumətlərarası Komitəsi tərəfindən müəyyən edilmiş və Baş Assambleya tərəfindən təsdiq olunmuş meyarlara uyğun şəkildə həyata keçirilir. Seçilmiş təşəbbüslərin icrasına isə beynəlxalq səviyyədə dəstək göstərilir ki, bu da qeyri-maddi mədəni irsin qorunması sahəsində qabaqcıl təcrübələrin yayılmasına və tətbiqinə mühüm töhfə verir.

Hazırda YUNESKO-nun qeyri-maddi mədəni irs üzrə mexanizmləri çərçivəsində ümumilikdə beş regionu əhatə edən 157 dövlətdən 849 irs elementi müvafiq siyahılara daxil edilmişdir. Təqdim olunmuş namizədlik sənədləri arasından 77-si Komitə tərəfindən qabaqcıl və nümunəvi təcrübə kimi seçilmişdir. Bu baxımdan Azərbaycanın "Lahıc misgərlik sənəti" və "Sədəf sənətkarlığı" üzrə namizədlik sənədlərinin də həmin seçilmiş nümunələr sırasında yer alması xüsusi əhəmiyyət kəsb edir və ölkənin zəngin qeyri-maddi mədəni irsinin beynəlxalq səviyyədə tanınmasının göstəricisi kimi qiymətləndirilir.

Azərbaycan Respublikasının YUNESKO ilə əməkdaşlığı xüsusilə Ümummilli lider Heydər Əliyevin 1993-cü ilin dekabr ayında Fransa Respublikasına rəsmi səfəri çərçivəsində YUNESKO-nun Baş direktoru Federiko Mayor ilə görüşündən sonra daha sistemli və intensiv xarakter almışdır. Sonrakı dövrdə Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın fəaliyyəti nəticəsində bu əməkdaşlıq daha da genişlənmiş, keyfiyyətcə yeni mərhələyə qədəm qoymuş və mühüm nəticələr əldə edilmişdir.

Bu əməkdaşlığın institusional və informasiya təminatı baxımından Prezident Kitabxanasında yerləşdirilən "Azərbaycan-YUNESKO əlaqələri" adlı elektron layihə xüsusi əhəmiyyət daşıyır. Azərbaycan və ingilis dillərində təqdim olunan bu resurs vasitəsilə istifadəçilər YUNESKO-nun fəaliyyəti, eləcə də Azərbaycan ilə bu təşkilat arasındakı əməkdaşlıq istiqamətləri barədə geniş və sistemləşdirilmiş məlumat əldə edə bilirlər. Layihə çərçivəsində eyni zamanda mövzu ilə bağlı ədəbiyyatın elektron variantlarını özündə ehtiva edən rəqəmsal kitabxana da təqdim olunur.

YUNESKO ilə Azərbaycan arasında münasibətlərin inkişafında mühüm mərhələlərdən biri 2004-cü ildə Mehriban Əliyevanın YUNESKO-nun Xoşməramlı səfiri seçilməsi olmuşdur. Onun təşəbbüs və səyləri nəticəsində Azərbaycanın həm maddi, həm də qeyri-maddi mədəni irs nümunələrinin YUNESKO-nun müvafiq siyahılarına daxil edilməsi istiqamətində əhəmiyyətli nailiyyətlər əldə olunmuş, ölkənin mədəni irsi beynəlxalq səviyyədə daha geniş tanınmışdır.

Azərbaycanın 24 qeyri-maddi irs nümunəsi YUNESKO-nun Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısına daxil edilmişdir:

1. Azərbaycan Muğamı (2008);
2. Azərbaycan aşıq sənəti (2009);
3. Novruz bayramı (2009) - Çoxmillətli nominasiya kimi (Azərbaycan, Hindistan, İran, Qırğızıstan, Pakistan, Türkiyə, Özbəkistan) YUNESKO-nun Bəşəriyyətin qeyri-maddi mədəni irsi üzrə Reprezentativ siyahısına daxil edilmişdir. Daha sonra 2016-cı ildə Əfqanıstan, İraq, Qazaxstan, Tacikistan və Türkmənistan, 2024-cü ildə isə Monqolstan nominasiyaya qoşulmuşdur;
4. Azərbaycanın ənənəvi xalçaçılıq sənəti (2010);
5. Simli musiqi aləti tarın hazırlanması və ifaçılıq sənəti (2012);
6. Qarabağ atüstü oyun ənənəsi Çovqan (Çövkən) (2013) - Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir;
7. Qadın ipək baş örtüyü kəlağayının ənənəvi hazırlanma və daşınma mədəniyyəti və onun simvolikası (2014);
8. Lahıc misgərlik sənəti (2015);
9. Lavaş, katırma, jupka, yufka - nazik çörəyin hazırlanma və paylaşma mədəniyyəti (2016) - Çoxmillətli nominasiya kimi (Azərbaycan, İran, Qazaxıstan, Qırğızıstan, Türkiyə) müvafiq siyahıya daxil edilmişdir;
10. Mədəni kimliyin hissəsi olan dolmanın hazırlanma və paylaşma ənənəsi (2017);
11. Kamança simli musiqi alətinin hazırlanması və ifaçılıq sənəti (2017) - Çoxmillətli nominasiya kimi (Azərbaycan və İran) müvafiq siyahıya daxil edilmişdir;
12. Yallı (Köçəri, Tənzərə): Naxçıvanın ənənvi qrup rəqsləri (2018) - Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir;
13. Dədə Qorqud/Korkyt ata/Dede Korkut irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi (2018) - Çoxmillətli nominasiya kimi (Azərbaycan, Türkiyə və Qazaxıstan) siyahıya daxil edilmişdir;
14. Nar bayramı, ənənəvi nar festivalı və mədəniyyəti (2020);
15. Miniatür sənəti (2020) - Çoxmillətli nominasiya kimi (Azərbaycan, Türkiyə, İran və Özbəkistan) siyahıya daxil edilmişdir;
16. Pəhləvanlıq, ənənəvi zorxana oyunları və idman növləri (2022);
17. Molla Nəsrəddin lətifələrinin şifahi ənənəsi (2022) - Çoxmillətli nominasiya kimi (Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkiyə, Türkmənistan və Özbəkistan) siyahıya daxil edilmişdir;
18. Baramaçılıq və toxuculuq üçün ənənəvi ipək istehsalı (2022) - Çoxmillətli nominasiya kimi (Azərbaycan, Əfqanıstan, İran, Türkiyə, Tacikistan, Özbəkistan və Türkmənistan) siyahıya daxil edilmişdir;
19. Çay mədəniyyəti: kimliyin, qonaqpərvərliyin və sosial əlaqələrin rəmzi (2022) - Azərbaycan və Türkiyə nominasiyaya birgə qoşulmuşdur;
20. Balaban (mey) sənətkarlığı və ifaçılıq sənəti (2023) - Azərbaycan və Türkiyə nominasiyaya birgə qoşulmuşdur;
21. Sədəf Sənətkarlığı (2023) - Azərbaycan və Türkiyə nominasiyaya birgə

qoşulmuşdur;

22. İllüminasiya sənəti: Təzhib/Tazhib/Zarhalkori/Tezhip/Naqqoshlik (2023) - Çoxmillətli nominasiya kimi (Azərbaycan, İran, Türkiyə, Tacikistan və Özbəkistan) siyahıya daxil edilmişdir;

23. İftar/Eftari/İftar/İftor və onun sosial-mədəni ənənələri (2023) - Çoxmillətli nominasiya kimi (Azərbaycan, İran, Türkiyə və Özbəkistan) siyahıya daxil edilmişdir;

24. Azərbaycanda təndir sənətkarlığı və çörəkbişirmə (2024).

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası. – Bakı, 2016.
2. Browse the Lists of Intangible Cultural Heritage and the Register of Good Safeguarding Practices [Elektron resurs]. – URL: https://ich.YUNESKO.org/en/lists?text=&country[]=00018&multinational=3#tabs – Götürülmə tarixi: 04.04.2026.
3. Hüseynova M. Mədəni irsin qorunması sahəsində milli və beynəlxalq tənzimetmə // Mədəni irs beynəlxalq ustad məktəbi: tədris vəsaiti / tərt. F. Xəlilli. – Bakı: AFPoliqrAF, 2025. – S. 43–64. – DOI: https://doi.org/10.30546/978-9952.2025.1043
4. International Day of the Intangible Cultural Heritage [Elektron resurs]. – URL: https://ich.YUNESKO.org/en/international-day-intangible-cultural-heritage – Götürülmə tarixi: 04.04.2026.
5. Mədəni əməkdaşlıq [Elektron resurs]. – URL: https://YUNESKO.preslib.az/az/page/W5QC9jOEy3 – Götürülmə tarixi: 04.04.2026.
6. Mükərrəmoğlu M. Azərbaycan qeyri-maddi mədəni irs nümunələri YUNESKO tərəfindən qorunur // Xalq qəzeti. – 2011. – 25 avqust. – № 187. – S. 4.
7. Procedure of inscription of elements on the Lists and of selection of Good Safeguarding Practices [Elektron resurs]. – URL: https://ich.YUNESKO.org/en/procedure-of-inscription-00809 – Götürülmə tarixi: 04.04.2026.
8. Qasımov Ş. Azərbaycanın qeyri-maddi mədəni irsi və onun YUNESKO-dakı yeri // Mədəni irs beynəlxalq ustad məktəbi: tədris vəsaiti / tərt. F. Xəlilli. – Bakı: AFPoliqrAF, 2025. – S. 87–102. – DOI: https://doi.org/10.30546/978-9952.2025.1087
9. Qeyri-maddi mədəni irs [Elektron resurs]. – URL: https://culture.gov.az/az/activity/32 – Götürülmə tarixi: 04.04.2026.
10. Qeyri-maddi mədəni irs nümunələri [Elektron resurs]. – URL: https://YUNESKO.az/az/categories/intangible_cultural_heritage – Götürülmə tarixi: 04.04.2026.
11. Text of the Convention for the Safeguarding of the Intangible Cultural Heritage [Elektron resurs]. – URL: https://ich.YUNESKO.org/en/convention – Götürülmə tarixi: 04.04.2026.
12. YUNESKO-nun “Qeyri-maddi mədəni irsin qorunması haqqında” Konvensiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. – Bakı, 2 oktyabr 2006. – № 134-IIIQ. – URL: https://e-qanun.az/framework/12418 – Götürülmə tarixi: 04.04.2026.

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Texniki korrektor – Təranə RƏHİMOVA
Səhifələnmə – Günel ƏSƏDOVA
Çap – Oktay YUSİFOV
Cild – Gövhər NURULLAYEVA
– İlhamə MİKAYILOVA

*Kitab* ***"AFPoliqrAF"*** *mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

afpoliqraf@mail.ru
afpoliqraf@gmail.com
Tel.: +994 (12) 510 96 74
Mob.: +994 (50) 405 96 74

Yığılmağa verilmişdir: 07.04.2026
Çapa imzalanmışdır: 27.04.2026
Qarnitura: Alice, Times New Roman
Şərti çap vərəqi: 37,5
Formatı: 64x90 1/8
Tiraj: 300